# Xaqan-i Cənətməkan adlandırılan Qızılbaş Dövləti Şahı



Elşən Mirişli
Gəncə şəhəri, tarixçi

***I Şah İsmayılın böyük oğlu I Şah Təhmasib 22 fevral 1514-cü ildə İsfahan yaxınlığındakı Şahabad kəndində anadan olmuşdu. Təhmasib Mirzə atası I Şah İsmayılın erkən vəfatı səbəbindən 23 may 1524-cü ildə 10 yaşında taxta çıxmışdı.***

Dövlət işləri üzərində əməli nəzarəti Rumlu tayfasının rəhbəri, I Təhmasibin lələsi (atabəyi) Div Sultan həyata keçirirdi.1527-ci ilin iyulunda Div Sultan Çuxa Sultanın təhriki ilə öldürüldü. Çuxa Sultan gənc şahı inandıra bilmişdi ki, Div Sultan tayfalararası ədavətin və müharibələrin səbəbkarıdır və o, divana daxil olanda şah Div Sultanı oxla vurmuş, sonra isə şahın xidmətçiləri onu qətlə yetirmişdilər.Bununla da Rumlu əyanlarının hakimiyyət dövrü sona şatdı. I Şah Təhmasibin hakimiyyəti dövründə Şərq və Qərb müharibələrində Qızılbaş ordusu tərəfindən tüfəngdən və topdan istifadə olunubdur. Səfəvi sülaləsinə mənsub orduda ordu mənsublarının papaqları qırmızı rəngdə olurdu.Belə baş geyimini I Şah İsmayılın atası öz müridləri üçün müəyyən etmişdi. Məhz buna görə də onlara qızılbaş deyilirdi.Başlarına qırmızı papaq qoyan qorçilərin xüsusi fərqləndirici əlamətləri-uzun bığları olurdu.

## I Şah Təhmasibin iqtisadi siyasəti.

I Şah Təhmasib ölkənin iqtisadi vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə bir sıra tədbirlər həyata keçirmişdi.Tarixi mənbələrdən aydın olur ki,olmazın zülm və fəsada məruz qalan əhalidən I Şah İsmayıl 35 növ vergi alır və əhali eyni zamanda müxtəlif mükəlləfiyyətlər daşıyırdılar.Bunun nəticəsidir ki, Şah Təhmasib islahatlar keçirməyə məcbur oldu.Birinci növbədə o,bir sıra vergiləri ləğv etdi. Şah Təhmasib tarixə ordusunun və rəiyyətinin qayğısına qalan bir hökmdar kimi keçmişdir.Şah I Təhmasib zamanında rəiyyət tamamilə əmin-amanlıqda, rahatlıq və asudəlikdə idi. Əgər rəiyyətdən şahın hökmündən bir dinar artıq vergi alınsaydı,o şəxs 50 tümən cərimə olunurdu. I Şah Təhmasib 1565-ci ildə şəhər əhalisindən, sənətkar və tacirlərdən tamğa vergisinin alınmasını ləğv etdi.Tamğa vergisinin ləğvi haqqında Təhmasibin fərmanının mətni Təbrizdəki Came məscidi üzərində həkk olunmuşdur.Tamğa malları bir ölkədən başqa bir dövlətin ərazisinə keçirərkən gömrük haqqı kimi də alınırdı. Tamğa dövlət xəzinəsinin əsas mədaxilini təşkil edirdi.

I Şah Təhmasib tamğadan əlavə mal-e bazarha, mal-e möhtərifə və mal-i əsnaf vergilərini də rəiyyətdən toplamağı qadağan etdi.Vergilərin yarısını şəriət qanununa uyğun olmadığına görə rəiyyətdən almağı ləğv etdi.Bu islahatlar Qızılbaş Dövlətinə misli görünməmiş canlanma və iqtisadi yüksəliş gətirdi. I Şah Təhmasib 1565-ci ildə mal-i möhtərifə vergisini də ləğv etmişdi.

Şah Təhmasib hər il müxtəlif ziyarətgahlara dövlət xəzinəsindən 5-6 min tümən məbləğində pul və qızıl göndərirdi.1531-ci ildə şahın xüsusi fərmanı əsasında I Şah İsmayılın hakimiyyəti dövründən bütün ölkədə fəaliyyət göstərən şərabxana və qumarxanalar bağlanıldı və həmin müəssisələrdən gələn gəlir (mal-i vücuh monhiyyat) ləğv edildi və vergi dəftərindən çıxarıldı. Sarayda saxlanılan 500 tümənlik tiryək axar suya atılaraq məhv edildi. Lakin bununla yanaşı o, dövlət xəzinəsini zənginləşdirmək siyasətini də yeridirdi. I Şah Təhmasibin yarıməsrdən artıq hakimiyyəti dövründə xəzinəyə çoxlu daş-qaş,qızıl əşyalar,900 min tümənlik nəğd pul və müxtəlif qiymətli məmulat toplanmışdı.Şərəfxan Bidlisi bu haqda daha ətraflı məlumat verir.O yazır ki, "heç bir padşah, heç vaxt beytül-malda bu həcmdə nəğd pul, qiymətli qumaş,əmtəə, qızıl və gümüş qablar toplamağa səy göstərməmişdir.Beytül-malda 380 min tümən qızıl və gümüş sikkə, hər biri 3 min misqaldan ibarət olan 600 ədəd qızıl və 600 ədəd gümüş kərpic, 800 ədəd qızıl və gümüş papaq, 200 xarvar ipək,atlas,bahalı parçadan tikilmiş 30 min dəst paltar,cəbbəxanada 30 min süvarinin silahı,3 min dəvə, 3 min madyan, 200 sürü xass atları var idi.I Şah Təhmasibin əmri ilə Azərbaycanın mal-ı xərac vergisi yeddi il alınmamışdı.

## Qızılbaş Dövləti (Səfəvilər) ilə Hindistandakı Teymur İmperatorluğu (Böyük Moğollar) ilə münasibətlər.

Qızılbaşlarla Hindistandakı Teymur İmperatorluğu (1526-1857) arasında münaqişə çox mühüm hərbi-strateji məntəqəyə şəhər-qalaya Qəndəhara yiyələnmək uğrunda baş verdi.1537-ci ilin qışında I Şah Təhmasib Qəndəharı Hindistandakı Teymur İmperatorluğundan geri almaq üçün Heratdan yola düşdü. Qəndəhardakı qala rəisi Xacə Kalan şəhəri müqavimət göstərmədən qızılbaşlara təslim etdi. I Şah Təhmasib Şah Budaq xan Qacarı Qəndəhar vilayətinin hakimi təyin etdi və Herata qayıtdı .Lakin 1538-ci ildə Hindistandakı Teymur İmperatorluğu padşahı Hümayunun qardaşı Mirzə Kamran qoşunla Qəndəhara gələrək qızılbaşları oradan sıxışdırdı.

Qızılbaş Dövləti - Hindistandakı Teymur İmperatorluğu münasibətlərində Hümayunun hərbi yardım haqqında xahişlə I Şah Təhmasibə müraciət etməsi əlamətdar hadisə oldu. Hümayun əfqan hakimi Şirxan tərəfindən darmadağın edilmiş və hətta ona qarşı çıxış etmiş qardaşları da onu yalnız

buraxmışdılar.Vəziyyət o dərəcədə ağırlaşmışdı ki, o,arvadı, quluqçusu və 40 etibarlı adamının müşayiəti ilə Qızılbaşlar Dövlətinin ərazisində təqibdən yaxa qurtarmağa məcbur olmuşdu.

1544-cü ildə Hümayun Sistan hakimi Əhməd Sultan Şamlı tərəfindən padşaha layiq təmtəraqla qəbul edilərək Herata yola salınmışdı.Humayun onu qarşılamaq üçün öz məiyyəti ilə şəhər hüdudlarından xeyli kənara çıxmış Xorasan bəylərbəyi Məhəmməd xan Şərəfəddin oğlu tərəfindən də böyük etiramla qarşılanmışdı.Humayun bir neçə gün Heratda qaldıqdan sonra Şahın yanına-Azərbaycana tərəf hərəkət etdi.Sultaniyyənin yaxınlığında, Sorluq yaylağındakı şah düşərgəsində Humayunu Şahın qardaşları Bəhram və Sam,vəzir Qazi Cahan,qorçubaşı Sevindik bəy və dövlətin digər yüksək rütbəli adamları qarşıladılar. Həsən bəy Rumlu öz kitabında qeyd edir ki, Hümayun şah çadırına yaxınlaşanda atdan düşdü və alaçığa doğru yollandı. I Şah Təhmasib onu görüb çadırından çıxdı

və bir neçə addım irəli yeridi.Oradakılar "iki parlaq ulduzun birləşməsinin" şahidi oldular.Hümayunun şaha bağışladığı hədiyyələr arasında "tayı -bərabəri olmayan,taleyin görmədiyi və zamanın eşitmədiyi dörd misqal və dörd dənə olan almazın" da adı çəkilir.

I Şah Təhmasib tərəfindən Budaq xan Qacar və Şahverdi bəy Ustaclı başda olmaqla 12 mi nəfərədək qorçu əsgəri qızılbaş Hümayunun sərəncamına verildi. Hümayun 12 min seçmə qızılbaş əsgəri ilə Hindistana yola düşdü,öz düşməni Şirxanı darmadağın etdi və taxt-tacı özünə qaytararaq Dehlini tutdu.O, bu köməyin müqabilində hər il 40 min tümən gəlir verən Qəndəharı Səfəvilərə güzəştə getdi.

## Qızılbaş Dövləti (Səfəvi Dövləti) ilə Osmanlı İmperatorluğu arasında müharibənin başlanması.

Savaş Ərəb İraqına sahib olmaq uğrunda alovlandı. 1528-ci il yazın axırında Luristanda Kalhur hakimi, Noxud Soltan Mosullu adı ilə tanınan Zülfüqar xan Qızılbaş Dövləti əleyhinə qiyam qaldırdı, dayısının hakim olduğu Bağdada hücum etdi,onu öldürüb bütün nəslini qırdı və Ərəb İraqını tamamilə özünə tabe etdi.Sonra Zülfüqar Bağdad şəhərinin açarlarını Osmanlı sultanı I Süleymana göndərərək onun tabeliyinə keçdi.

1534-cü ilin yayında I Sultan Süleyman Qanuninin (1520-1566) Qızılbaş Dövlətinə Azərbaycana ilk yürüşü baş verdi. Ordunun ön dəstəsini böyük vəzir İbrahim Paşanın 90 min nəfərlik qoşunu təşkil edirdi.İbrahim Paşanın hərbi hissələri 1534-cü il iyunun 13-də Təbrizə daxil olmuşdu.

Sultaniyyə şəhəri də Osmanlı İmperatorluq ordusu tərəfindən ələ keçirildi. Bu zaman Sultan Süleyman böyük çətinliklərlə Şəhrizurdan keçərək Bağdadı ələ keçirdi.

I Sultan Süleymanın Qızılbaş Dövlətinə Azərbaycana ikinci yürüşü 1534-1535-ci illərdə olmuşdu.Lakin Budaq xan Qacar Sənan paşanı məğlub edərək həlak etdi.Van və Erciş əraziləri I Şah Təhmasibin əlinə keçdi.

## Şirvan və Şəkinin Qızılbaş Dövlətinə birləşdirilməsi.

Şirvan taxtında I Şah İsmayılın qızı Pərincanın əri II Xəlilüllah əyləşmişdi.Qohum olmalarına baxmayaraq I Təhmasib Şirvan şahlığını məhv etmək istəyirdi.1535-ci ildə II Xəlilüllah öldü və övladı olmadığından hakimiyyət uğrunda mübarizə başlandı.I Şah Təhmasib bundan istifadə edərək 1538-ci ildə Şirvan üzərinə qoşun göndərdi və yeni Şirvanşah əsir alınaraq edam edildi.Şirvan şahlığı ləğv edildi. Şirvan Qızılbaş (Səfəvi) Dövlətinin bir vilayətinə- bəylərbəyliyinə çevrildi.Şirvanı Şah Təhmasibin təyin etdiyi bəylərbəyilər idarə etməyə başladılar.İki il sonra qızılbaşlar Bakını da ələ keçirdilər.

I Təhmasib Şirvanda öz mövqeyini möhkəmləndirdikdən sonra Şəkini tabe etməyə girişdi. Şəki hökmdarları hələ I Təhmasib Şirvana yürüşlər edəndə Şirvanşahlara orduları ilə kömək edirdilər.Onlar yaxşı başa düşürdülər ki Şirvan tabe edildikdən sonra I Təhmasib onları da rahat buraxmıyacaqdır.

1551-ci ildə I Təhmasib Gürcüstana yürüş təşkil etdi.O,Gürcüstana doğru irəliləyərkən Şəki hakiminə tabe olmağı tələb etdi.Şəki hakimi I Təhmasibin təklifini qəbul etmədi. I Təhmasib Şərqi Gürcüstanı (İmeretiya,Menqreliya və Quriya) ələ keçirib burada öz hakimiyyətini möhkəmləndirəndən sonra Şəki üzərinə yeridi.Şəki hakimiyyətinə son qoyuldu, ərazisi isə Azərbaycanın Qızılbaş Dövlətinin tərkibinə qatıldı.



I Təhmasibin 52 illik Səltənəti

***Ardı var***